*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

1 | 26 DEKABR 2021-ci il BAZAR № 282 (7178) | RESPUBLİKA

# Yeni hərbi hissələrin açılışı davamlı ordu quruculuğunun təsdiqidir




**2020-ci il oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Hadrut qəsəbəsinin işğaldan azad olunması barədə xəbəri xalqımıza çatdırdı. Şuşaya gedən yolun "açar"ı olan Hadrutun alınması barədə xəbəri Ermənistan tərəfi dərhal yalan adlandırdı. Lakin Azərbaycan tərəfinin nümayiş etdirdiyi vedeokadrlar ermənipərəst kütləvi informasiya vasitələrini susdurdu. Azərbaycan Prezidenti ermənilərin itkiləri barədə məlumat verib xəbərin doğruluğunu bütün dünyaya bir daha bəyan etdi...**

Tarixi qələbəmizdən sonra işğaldan azad olunmuş ərazilərə dövlət başçısının səfərləri başladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Füzuli rayonuna, Hadrut qəsəbəsinə ilk səfəri 2021-ci il martın 15-də oldu. Dövlət başçısı Hadrutda olarkən demişdi: "Yenə işğaldan azad edilmiş torpaqdayam. Bu gün Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyacağam. Bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyır. Bu, birinci layihə deyil. Artıq bir neçə yol layihəsi icra edilməkdədir. Azad edilmiş torpaqların bərpası başlamışdır".

Həmin səfər çərçivəsində Füzuli-Hadrut avtomobil yolunun təməli qoyuldu. Bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaq. Yol boyunca avtomobil körpüləri inşa ediləcək.

Dövlət başçısı, Ali Baş Komandan Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırmış və çıxış edərək demişdi: "Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edilib və qəsəbənin azad edilməsi uğurlu əməliyyat nəticəsində mümkün olmuşdu. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi".

**(davamı 4-cü səhifədə)**



# Yeni hərbi hissələrin açılışı davamlı ordu quruculuğunun təsdiqidir

(əvvəli 1-ci səhifədə)

Onu da qeyd edək ki, Füzuli şəhəri məhz Hadrut qəsəbəsindən sonra oktyabrın 17-də azad edilib. Hadrut döyüşləri haqlı olaraq Şuşanın azad edilməsi üçün də uğurlu əməliyyat sayılır. Çünki Azərbaycan əsgəri Şuşaya düşmənin gözləmədiyi istiqamətdən, dağlardan, qayalardan keçərək daxil oldu. Hərbi ekspertlərin fikirinə görə, öz mürəkkəbliyinə görə əməliyyat dünyanın hərb elminə daxil olacaqdır. Prezidentin Hadruta səfəri çərçivəsində həmçinin Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməli qoyuldu. Bu yol başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürür və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşir. Uzunluğu 43 kilometrdir. Dörd hərəkət zolaqlı bu yol boyunca avtomobil körpülərinin tikilməsi nəzərdə tutulur.

Dövlət başçısının Hadruta ikinci səfəri 2021-ci il oktyabrın 9-da baş tutub. Səfər çərçivəsində o, Hadrut qəsəbəsində yeni məscidin təməlini qoydu. Hadrut qəsəbəsində yerli əhali üçün inşa ediləcək məscidin minarəsi 26 metr olacaq. Eyni vaxtda 250 nəfərin ibadəti üçün nəzərdə tutulan məscidin ikinci mərtəbəsində qadınların ibadət otağı yerləşəcək. Məscidin fasadında xüsusi bəzək elementlərindən istifadə olunacaq.

Prezident Hadrut döyüşlərinin əhəmiyyətindən danışarkən demişdir: "...Hadrutda onların çox böyük canlı qüvvəsi var idi, bizi gözləmirdilər. Çünki hərbi nöqteyi-nəzərdən Hadrutu götürmək doğrudan da çox böyük fədakarlıq və peşəkarlıq tələb edirdi. Biz bu əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik".

Ümumiyyətlə, ölkə başçısının azad olunmuş torpaqlara səfəri çərçivəsində yeni-yeni obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etməsi bir ənənə halını alıb. Hadrut qəsəbəsinə əvvəlki səfərlərində olduğu kimi, növbəti gəlişində də ölkə rəhbəri burada hərbi hissənin açılışında iştirak edib. Son illər ölkə ərazisinin bir çox yerlərində yeni hərbi hissələrin, hərbi şəhərciklərin salındığını, mövcud hərbi hissə və şəhərciklərin isə əsaslı təmir edildiyini, bu sahəyə böyük diqqət yetirildiyini deyən Prezident İlham Əliyev ordu quruculuğu istiqamətində aparılan işlər arasında hərbi hissələrin yaradılmasının xüsusi yer tutduğunu da bildirib. Xocavənd rayonunda hərbi hissənin ordumuzun sərəncamına verilməsinin əhəmiyyətindən danışaraq deyib: "Hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların məişət-mənzil problemlərinin həlli də həmişə diqqət mərkəzində idi. Bildiyiniz kimi, 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə mənim Fərmanımla dövlət tərəfindən mənzillər verilir və bu günə qədər 2200-dən çox hərbçi dövlət tərəfindən mənzillə təmin olunmuşdur... Yəni, ordu dövlət tərəfindən, Prezident, Ali Baş Komandan tərəfindən daim diqqətlə əhatə olunub. Bu diqqət və qayğının nəticəsində bu gün Azəraycanın Müzəffər, Ordusu dünyada məhz müzəffər döyüş meydanında qalib gəlmiş ordu kimi tanınır".

Prezident öz çıxışında Hadrut döyüşlərinin əhəmiyyətindən bir daha söz açaraq qeyd edib ki, dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində Şuşa əməliyyatı haqqında indi müzakirələr gedir, təhlillər aparılır və bir çoxları, xüsusilə Şuşada olmuş insanlar inana bilmirlər ki, Azərbaycanın qəhrəman övladları yüngül silahlarla qayalara dırmaşaraq bizim mədəniyyət paytaxtımız olan, Qarabağın tacı Şuşanı işğalçılardan azad etdilər. Biz məhz Hadrut meşələrindən keçərək, yüksək dağları aşaraq Şuşaya yaxınlaşdıq və Şuşa uğrunda gedən döyüşlər artıq heç kimə sirr deyil: "44 günlük İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun tamamilə darmadağın edilməsinə gətirib çıxardı. Bu gün Ermənistan ordusu yoxdur".

Hadrutda yeni hərbi hissənin açılması əlamətdar hadisə olmaqla, həm də strateji əhəmiyyət daşıyır. Bu, bir daha onu göstərir ki, ordu quruculuğu prosesi davam etməkdədir. Müharibədən sonra da imzalanan kontraktlar əsasında Azərbaycana Ordumuzun təchizatı üçün ən müasir silahlar, texnikalar gətirilir, hərbi xərclər, hərbçilərin maaşları artırılır.

Yeni hərbi hissənin əhəmiyyətindən danışan ölkə başçısı deyib: "Bax, bu gün bu hərbi hissədə yeni hərbi birləşmənin nümayəndələri, komando qüvvələri yerləşir. Komando Briqadasının yaradılması bizim üçün yenilikdir. Bir yox, iki yox, bir çox Komando briqadaları artıq Azərbaycanda yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqdır...".

Bəli, bu gün ordu quruculuğu prosesi uğurla davam etdirilir. Bu isə Azərbaycanın təhlükəsizliyinin təmin edilməsi, müdafiə gücünün artırılması üçün vacibdir. Əgər 18 il müddətində bu istiqamətdə işlər aparılmasaydı "yeni torpaqlar uğrunda yeni müharibə"yə hazırlaşan, müharibənin başlandığı təqdirdə erməni tanklarının Bakı küçələrində olacağını iddia edən düşmənin layiqli cavabını verə bilməzdik. Prezidentin dediyi kimi: "Bütün bu təkəbbürlü ifadələrin hamısı zibil yeşiyinə atıldı. Bəli, erməni tankları gəldi Bakıya, onları biz gətirdik. Azadlıq meydanında hərbi paradda, Qələbə paradında onları nümayiş etdirdik".

Bir sözlə, "əgər Ermənistan yenidən bizim üçün təhlükə mənbəyi olmağa cəhd edərsə, onların axırı İkinci Qarabağ müharibəsindəki kimi olacaqdır". Bunu bizə Prezident, Ali Baş Komandan İlham Əliyev və qüdrətli, məğlubedilməz Azərbaycan ordusu vəd edir.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**